Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu və
Vətən müharibəsində qələbənin 5-ci ildönümünə
həsr olunur

UOT 94(479.24)

ƏLƏMDAR ŞAHVERDİYEV
Bakı Ali Neft Məktəbi
İngilis dili və Humanitar fənlər mərkəzinin dosenti
elemdar.shahverdiyev@bhos.edu.az

MÜSTƏQİLLİK TARİXİNİN İLK BAŞ NAZİRİ-FƏTƏLİ XAN XOYSKİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/23-26

Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin ilk Baş naziri olmuş və milli dövlətçiliyimizin qurulmasında mühüm rol oynamışdır. O, 1918-ci ildə elan edilən müstəqillik aktının müəlliflərindən biri kimi Azərbaycanın suverenliyinin beynəlxalq aləmdə tanıdılması istiqamətində fəaliyyət göstərmişdir. Hüquqşünas təhsilli bir dövlət xadimi kimi Xoyski həm qanunvericilik, həm də hökumət idarəçiliyi sahəsində böyük işlər görmüşdür. Onun rəhbərliyi ilə ilk milli hökumət formalaşdırılmış, dövlət atributları təsis edilmiş, ordunun təşkili başlanmışdır. Fətəli xan Xoyskinin fəaliyyəti Azərbaycanın dövlətçilik tarixi üçün böyük bir örnəkdir.

Açar sözlər: Cəfərqulu xan, Xoy, ədliyyə, hərbi, nazir.

Giriş. Azərbaycan ən qədim zamanlardan bəri qəhrəmanlar ölkəsi olmuşdur. Vətənə hədsiz sədaqəti və düşmənə qarşı amansız olmaq ruhunda formalaşmış Azərbaycan xalqı özünün çox əsrlik tarixi boyunca heç bir zaman yadelli işğalçıların qarşısında boyun əyməmiş, öz azadlığını əzmlə müdafiə etmiş, ölkəmizin ərazi bütövlüyünə və müstəqilliyinə qəsd etməyə cəhd edən yadelli düşmənləri mərdliklə darmadağın etmişdir (7, s.222). Buna xalqımızın böyük və şanlı tarixi şahiddir və bunu bir daha 2020-ci il 27 sentyabr-10 noyabr 44 günlük Vətən müharibəsi təsdiq edir.

Müstəqillik tarixinin qəhrəmanlıq səhifələrindən birini də Azərbaycan Respublikasının varisi olan 1918-1920-ci illər Azərbaycan Cümhuriyyəti dövrü təşkil edir. Cümhuriyyət dönəmində 1918-ci il sentyabr ayının 15-də Bakı şəhərinin erməni-rus işğalından azad olunması, 1919-cu il (25 aprel-27 iyul) Muğan və Lənkəranda rusların yaratdığı "Muğan-sovet Respublikası"nın ləğv edilməsi və ən nəhayət 1920-ci il 21 mart-3 aprel tarixlərində baş vermiş Əsgəran döyüşü nəticəsində Qarabağ ərazisində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Azərbaycan xalqının qəhrəmanlıq tarixinin bariz bir nümunəsidir. Bu dönəm Zəfər tariximizin yazılmasında üç hökumət kabinəsinə rəhbərlik etmiş Fətəli xan Xoyskinin çox böyük xidməti olmuşdur.

Hər bir xalqın taleyində tarixi rol oynayan görkəmli şəxsiyyətlər olub. XX əsr Azərbaycan tarixində belə şəxsiyyətlərdən biri də Fətəli Xan Xoyski olubdur. O, Şərqdə və İslam dünyasında ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biridir.O,Azərbaycanən ilk Baş naziri, eyni zamanda milli dövlətçilik ideyalarının təşəkkülündə böyük xidmətləri olan bir şəxsiyyət kimi tarixə düşmüşdür. Heç bir dövlətin maliyyə tarixində görünməmişdir ki, ölkənin mədaxili qarşısında məxarici çox az olsun [3, s.178]. Fətəli xan Xoyski hökumətinin yeritdiyi iqtisadi siyasət bundan ibarət idi.

Həyatının ilk illərinə və təhsili. Fətəli Xan Xoyski 1875-ci il dekabrın 7-də Şəki şəhərində anadan olmuşdur. Babası Cəfərqulu xan Şəki xanlığı çar Rusiyası tərəfindən işğal olunduqdan sonra bir müddət Şəkinin hakimi olmuşdur. Fətəli xan Xoyskinin babası və atası çar ordusunda General

rütbəsinə qədər yüksəlmişlər. Hal-hazırda Şəki rayonundakı Cəfərabad kəndi Fətəli xan Xoyskinin babası Cəfərqulu xanın adı ilə bağlıdır.

Fətəli xan Xoyskinin təhsilinə gəldikdə O, ilk öncə Gəncə klassik gimnaziyasını bitirmişdir, 1897-ci ildə isə Moskva Universitetinin hüquq fakültəsini 1-ci dərəcəli diplomla başa vurmuşdur. O, hüquqşünas olaraq əvvəlcə Yelzavetpol dairə məhkəməsində kiçik məhkəmə məmuru kimi işə başlamışdır. Fətəli xan Xoyski 1907-ci ildən başlayaraq Gürcüstanda Kutaisi, Zuqdidi, Suxumi və Yekaterinodar şəhərlərində məhkəmə sistemində çalışmışdır [15, s.38].

Fətəli xan Xoyskinin siyasi fəaliyyəti, onun 1907-ci ildə Yelzavetpol dairəsindən 2-ci Rusiya Dövlət Dumasına üzv seçilməsi ilə başlayır (Azərbaycan Milli Arxiv idarəsi (1918-1920) XX əsrin əvvəllərində Rusiyada baş verən dəyişikliklər və 1905-ci il inqilabından sonra yaranan konstitusiya idarəçiliyinin yaratdığı şərait azərbaycanlı ziyalılarının siyasi həyatda fəallığını artırdı. O, Dumada Qafqaz müsəlmanlarının, xüsusilə də azərbaycanlıların hüquqlarının müdafiəsi ilə bağlı çıxışlar etdi. Dumadakı fəaliyyəti Fərəli xanı tanınmış siyasi xadimlər sırasına çıxardı. Onun milli məsələlərlə bağlı mövqeyi Azərbaycan ictimaiyyətində müsbət qarşılanırdı. Ona görə də O, Azərbaycan milli hərəkatının fəal üzvlərindən biri oldu. Fətəli xan Xoyskinin siyasi dünyagörüşünün formalaşmasında Əlimərdan bəy Topçubaşovun böyük rolu olmuşdur. O, Dövlət Dumasında fəaliyyət göstərdiyi müddətdə Ə.M.Topçubaşov kimi ümumrusiya partiyası olan Kadet Partiyasının üzvü olmuşdur. 1917-ci il fevral inqilabı nəticəsində Rusiyada Romanovlar sülaləsinin hakimiyyətinə son qoyuldu. Bu mərhələdə Fətəli xan Xoyski Əlimərdan bəy Topçubaşov ilə birlikdə bitərəf demokratik qrupun tərkibində siyasi fəaliyyətini davam etdirmişdir. Keçmiş çar ordusu generalı Donskoyun təşəbbüsü ilə Tiflisdə Transqafqaz (Zaqafqaziya-Q.G) Komissarlığı və Seymi yaradıldıqdan sonra Azərbaycan fraksiyasının tərkibində fəaliyyətini davam etdirmişdir. Transqafqaz Seymində Azərbaycan fraksiyası 4 partiya ilə təmsil olunurdu. Fətəli xan Xoyski Musavat və bitərəflər qrupunun üzvü idi [13, s.48].

Seymdə 4 partiya ilə təmsil olunan Azərbaycan türkləri Transqafqaz xalqlarının milli mübarizəsinin əlverişsiz şərtləri qarşısında qaldı. Vahid siyasi platformada öz qüvvələrini cəmləmiş qonşuları qarşısında, müxtəlif siyasi platformalara bölünmüş Azərbaycan türk xalqı zəif müqavimət yolunu tutdu. Məmməd Əmin Rəsulzadənin bütün partiya üzvlərinə hikmətli tövsiyəsi var idi, O deyirdi: birinin birindən xoşu gəlməyə bilər, amma bu ambisiya ümummilli məsələlərdə kənara qoyulmalıdır [2, s.18].

Fətəli xan Xoyskinin Seymdəki fəaliyyətinin yadda qalan hissəsi 1918-ci il may ayının 25-də onun sədrliyi altında keçirilən Azərbaycan fraksiyasının iclası ilə bağlıdır. Həmin iclasın protokolunda göstərilir ki, iclasın başlanğıcında Seymin sədri S.Çxeidzə, Seymin üzvləri İ.Sereteli və E.Qeqeçkori zala daxil oldular. Sereteli söz alaraq aşağıdakıları elan etdi:"…Seymin gürcü fraksiyası belə qərara gəlib ki, Transqafqaz xalqlarını suverenlik şüarı altında birləşdirmək mümkün olmadı və Transqafqazın süqutu göz qabağındadır (Zaqafqaziya və Tiflis üzrə sənədlər və materiallar, 1919). Xüsusilə Osmanlı dövləti ilə danışıqlar dövründə bu birliyin olmaması bir daha özünü göstərdi. Burada o, Azərbaycan fraksiyasının fəaliyyətin eyham edirdi. Fətəli xan Xoyski onlara cavab verdi ki, Transqafqaz xalqları öz aralarında mümkün ümumi maraqlarına görə hədsiz bağlı olduqlarından onlar üçün ayrılmaq çox da asan olmaz, ancaq əgər gürcü xalqının iradəsi belədirsə, bizim buna mane olmağa heç bir hüququmuz yoxdur və Azərbaycan türklərinə bu yeni siyasi şəraitdən asılı olaraq müvafiq qərar çıxartmaqdan başqa heç nə qalmır [6, s.45]. Sonra Fətəli xan Xoyski çıxışına davam edərək bildirdi ki, Seymin üzvləri və X.Karçikyan hökuməti ilə söhbətdən öyrənib ki, Gürcüstan müstəqilliyini elan etdiyi təqdirdə Seymin erməni fraksiyası Ermənistanın müstəqilliyini elan etməyə hazırlaşır [10, s.39].

Fətəli xan Xoyskinin sədrliyi altında Azərbaycan fraksiyasının keçən həmin iclasında yaranmış siyasi şərait hərtərəfli müzakirə edildikdən sonra aşağıdakı qətnamə qəbul edildi [4, s.231-238].

Əgər Gürcüstan öz müstəqilliyini elan edərsə, onların ardınca bizim tərəfimizdən Azərbaycanın müstəqilliyi elan edilməlidir [8, s.48]. Azərbaycan türk xalqı üçün həyatı əhəmiyyət kəsb edən bu tarixi iclasın protokolunu Fətəli xan Xoyski imzalamışdı [9, s.41]. Azərbaycan ziyalıları da milli dövlət qurmaq ideyası ətrafında birləşdilər.

1918-ci il may ayının 28-də Tiflisdə Azərbaycan Xalq cümhuriyyəti elan olundu. Fətəli xan Xoyski Baş Nazir və Ədliyyə naziri təyin olundu. Onun üzərinə yeni yaranmış dövlətin əsaslarını

qurmaq missiyası düşdü. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumətin qarşısında mürəkkəb vəzifələr dururdu. Bir tərəfdən daxili siyasi parçalanmalar və erməni-daşnak silahlı dəstələrinin təhdidləri, digər tərəfdən isə xarici dövlətlərin təzyiqləri mövcud idi. Buna baxmayaraq onun rəhbərlik etdiyi hökumət mühüm işlər gördü:

- Dövlət idarəçiliyi sistemi quruldu;
- Milli ordu formalaşdırılmağa başlandı;
- Təhsil sahəsində islahatlar aparıldı, milli məktəblər açıldı;
- Ədliyyə sistemi yaradıldı və bu sahə üzrə kadrların hazırlanmasına başlandı;
- Azərbaycan dili dövlət dili elan olundu;
- Diplomatik əlaqələrin qurulmasına xüsusi diqqət yetirildi.

1918-ci il sentyabr ayının 15-I Bakı şəhəri yaddelli işğalçılardan azad olunduqdan sonra paytaxt Gəncədən Bakıya köçürüldü. Azərbaycan tarixində böyük bir siyasi hadisə idi [12].

Fətəli xan Xoyski Azərbaycanın beynəlxalq səviyyədə tanınması üçün ciddi səylər göstərirdi. Onun təşəbbüsü ilə Paris Sülh konfransına nümayəndə heyəti göndərildi.1920-ci ilin yanvarında Antanta dövlətləri Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanıdılar [14]. Bu Fətəli xan Xoyskinin diplomatik uğuru və Azərbaycan xalqının müstəqillik yolunda qazandığı mühüm nailiyyəti idi.

1920-ci il aprel ayının 28-də Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal olunduqdan sonra, Azərbaycan hökumətinin bütün üzvləri kimi Fətəli xan Xoysk də bolşevik və erməni-daşnak qüvvələri tərəfindən ciddi təqib olunmağa başladı. Fətəli xan Xoyski 1920-ci il iyun ayının 19-da Tiflisdə xain erməni-daşnak cəlladları tərəfindən qətlə yetirildi. Onun ölümü təkcə Azərbaycan üçün deyil, bütün Rusiya müsəlmanlarının faciəsi idi.

Fətəli xan Xoyski özündən sonra böyük elmi-siyasi irs qoyub gedib. Bu gün də onun hüquqi prinsiplərə söykənən dövlət quruculuğu prinsipləri öz elmi əhəmiyyətini qoruyub saxlayır.

Nəticə. Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və möhkəmlənməsində misilsiz xidmətləri olan dövlət xadimidir. Onun həyat yolu Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Müstəqil Azərbaycan dövləti yaşadıqca, Fətəli xan Xoyskinin adı xalqımızın yaddaşında daim yaşayacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Arxiv İdarəsi-Fətəli xan Xoyskiyə dair sənədlər (1918-1920).
2. Azərbaycan Respublikasının ünvan-təqvimi. Stavroskinin redaktorluğu ilə (rus dilində). Bakı, 1920.
3. Baharlı (Vəlili), Azərbaycan. Bakı, Azərnəşr, M.,1993.
4. Baykara, H.Azərbaycan İstiqlal Mübarizəsi tarixi. Bakı, Azərnəşr, 1992.
5. Gürcüstan və Zaqafqaziyanın xarici siyasəti üzrə sənədlər və materiallar. Tiflis, 1919 (rus dilində).
6. Hasanli, J. At the Dawn of the Cold War: The Soviet-American Crisis over Iranian Azerbaijan? 1941-1946. Lanham>Rowman&Liitlefield, 2016.
7. İbrahimov Z. Seçilmiş əsərlər. Bakı, ”Elm”, 2013, s.568.
8. Məmmədzadə, M. Azərbaycan Xalq Cümhuriyyəti(1918-1920). Bakı, Elm, 1990.
9. Rəsulzadə M.Ə. Əsərləri, IV cild, Bakı. Qanun nəşriyyatı, 2013.
10. Svyatoçovski T. Rusiya və Azərbaycan Sərhədyanı bölgə keçid dövründə Bakı.Xəzər Universiteti nəşriyyatı, 2000.
11. Swietochowski, T. Russian Azerbaijan1905-1920. The Shapingof National Muslim-Community. Cambridje. Cambridge Univesity Press, 1985.
12. Süleymanlı A. Fətəli xan Xoyski və Azərbaycan dövlətçiliyi. Bakı: ADPU nəşriyyatı, 2018.
13. Şahverdiyev Ə. Trabzon və Batum sülh konfranslarında Azərbaycan məsələsi (Mətn): tarix e.n.a.dər. iddiası üçün olan dis.:07.00.02Ə.Ə.Şahverdiyev. Bakı Dövlət Un-ti, 2004.
14. Şəmilov R. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi. Bakı: Nurlan, 2005.
15. Yaqublu N. Cümhuriyyət qurucuları. Bakı. Nurlan, nəşriyyatı, 2018

АЛАМДАР ШАХВЕРДИЕВ
Доцент Центра английского языка и гуманитарных наук
Бакинской высшей школы нефти

ПЕРВЫЙ ПРЕМЬЕР-МИНИСТР В ИСТОРИИ НЕЗАВИСИМОСТИ – ФАТАЛИ ХАН ХОЙСКИЙ

Фатали хан Хойский был первым премьер-министром Азербайджанской Демократической Республики и сыграл важную роль в становлении национальной государственности. Как один из авторов Акта независмости 1918 года, он активино работал над международным признанием суверенитета Азербайджана. Образованный юрист, Хойский внес значительный вклад в законодательство и управление молодой республикой. Под его руководством было сформировано первое национальное правительство, учреждены государственные символы и начато создание армии. Фатали хан Хойский навсегда вошел в историю как один из ярких носителей идей независмости и государственности Азербайджана.

Ключевые слова: Джафаргулу-хан, Хой, юстиция, военные, министр.

ALAMDAR SHAHVERDIYEV
Associate Professor of the English Language and Humanities Center,
Baku Higher Oil School

FATALI KHAN KHOYSKI WAS THE FIRST PRIME MINISTER OF THE AZERBAIJAN DEMOCRATIC

Fatali Khan Khoyski (1875-1920) wos a prominent statesman and juist, who played a key role in the establishment of the Azerbaijan Democratic Republic (ADR). Following the declaration of independence on May 28, 1918, he became the first Prime Minister of the new republic. Under his Leadership,state institutions were built,a national army wasformed. Khoyski was instrumental in shaping the government structure, legal system and diplomatic relations of the young republic. His efforts helped secure international recognition of Azerbaijan at the Paris Peace Conference. Tragically, he was assassinated in Tiflis (Tbilisi) in 1920 by Armenian Dashnak militants.

Keywords: Jafargulu Khan, Khoy, justice, military, minister.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Redaksiya heyətinin qərarı ilə nəşr edilir.